**Naxçıvan Dövlət Universiteti**

# İnnovasiyalı iqtisadiyyat: reallıqlar və strateji hədəflər

**Respublika Konfransı**

Milli iqtisadiyyatların mühüm inkişaf göstəricilərindən birini də innovasiyalı iqtisadiyyat təşkil edir. İnnovasiyalar mövcud olduğu növlər üzrə həm sosial, həm də iqtisadi mahiyyətinə görə fərqlənirlər. Burada, universitet, regional, sahə, sənaye davamlı makroiqisadi inkişafın əsasını təşkil etməklə həm də, marketinq, investisiya, istehsalat, kompleks və digər sahələr üçündə səmərəli hesab etmək olar.

## Konfransın məqsədi

İqtisadiyyat innovasiyalara etibar edən və yaradıcı ideyaların reallaşması ilə daha səmərəli görünür. Elmi və nəzəri yanaşmaların istehsalata tətbiqinin optimal mexanizmlərinin müəyyən olunması, sağlam iqtisadi fəaliyyət, həmçinin, biznes mühitinin yaradılması innovasiyalı iqtisadiyyatın mövcudluğu ilə də mümkün olacaqdır. Konfransın əsas məqsədi elm, təhsil və iqtisadi inteqrasiyanın təşəkkülü zəminində sosial-iqtisadi mahiyyətinin əsaslandırılması və aktuallığının önə çıxarılmasından ibarətdir.

## Konfransın istiqamətləri

1.İnnovasiyalı iqtisadiyyat: təhsil siyasəti və tədris proseslərinə onun təsiri imkanları

2.Startap layihələri və innovasiyalar

3.İqtisad iinkişafda innovativ layihələrin rolu

4.Konsaltinq xidmətləri və kovorkinqlər

5.Təhsil–İnnovasiya–Biznes mühiti və sahibkarlıq fəaliyyəti

6.Texnoloji yeniliklər və rəqabət

7.İnnovasiyalı iqtisadiyyatda dünya təcrübəsi

8.Universitetlərdə tədqiqat və inkişafda innovasiyaların əhəmiyyəti

## Məqalələrin qəbul qaydaları

1.Məqalələr heç bir yerə təqdim edilməmiş yeni tədqiqatlar olmalıdır.

2.Məqalələrin həcmi 10 səhifəyə qədər, xülasələrin həcmi 200-250 sözdən ibarət olmalıdır.

3.Məqalənin mətni “A4” formatda, “12” ölçülü hərflərlə, yuxarıda və aşağıdan 2sm, soldan 3sm, sağdan 1sm məsafə ilə, 1.15 intervalla, Azərbaycan, türk, ingilis və ya rus dillərində “Times New Roman” şriftində aşağıdakı elektron ünvana göndərilməlidir: konfransiff@gmail.com
4.Təqdim olunan yazının əvvəlində məqalələrin adından sonra müəllifin adı, soyadı, işlədiyi müəssisə, tutduğu vəzifə, elmi dərəcəsi (olduğu təqdirdə) və müəllifin elektron poçt ünvanı tam göstərilməlidir.
5.Məqalənin əvvəlində müəlliflə bağl ıməlumatdan sonra, məqalənin yazıldığı dildə xülasə və açar sözlər verilməlidir.
6.Elmi araşdırmaların yazılma üsullarına uyğun, beynəlxalq standartlara cavab verən məqalələrdə giriş, ən azı iki yarımbaşlıq və nəticə olmalıdır.
7.Mövzu ilə bağlı elmi mənbələrə istinadlar vacibdir. Məqalədə istinadlar göstərildiyi yerdən sonra, mötərizə içərisində müəllifin soyadı, nəşrin ili və səhifə nömrəsi sıra ilə verilməlidir; məsələn: (Bünyadov2007,17-21). Əgər bir müəllifin eyni ildə çapolunmuş iki və daha artıq əsəri varsa, belə olduğu halda (Bünyadov2007(1), 31-36) və ya (Bünyadov2007(2), 42-55) kimi qeyd edilir. Məqalənin sonunda ədəbiyyat siyahısında soyad, ad və nəşr ili göstərildikdən sonra, mötərizə içərisində 1 və ya 2 rəqəmləri qeyd edilir; məsələn: (Bünyadov Ziya (2007/1), 31-36) və ya (Bünyadov Ziya (2007/2), 42-55).
8.Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat bu formada yerləşdirilməlidir: müəllifin soyadı və adı; nəşr ili (il); kitab; məqalə; simpozium və digərlərinin tam adı (əgər varsa, tərcümə edənin adı və soyadı); nəşredilənyer; nəşriyyatın adı. Məqalələrdən sonda səhifələr göstərilir. Ədəbiyyat siyahısı məqalənin sonunda verilməlidir.
9.Xülasə və açar sözlər məqalənin yazıldığı dildən başqa iki xarici dildə, ədəbiyyat siyahısından sonra yerləşdirilməlidir. Hər bir xülasədə məqalənin adı, müəllifin adı, soyadı və elmi dərəcəsi (olduğu təqdirdə) tam göstərməlidir. Məqalənin müxtəlif dillərdəki xülasələr məzmuna uyğun gəlməlidir.
10. Müəllif məqalənin keyfiyyətinə, göstərilən faktların düzgünlüyünə və digər məlumatlara görə cavabdehlik daşıyır. Sonda konfrans materialları toplu halında nəşr olunacaqdır. Məqalələrin nəşri ödənişsizdir. Məqalələrin göndərilməsi üçün son tarix: 09.05.2023

**Qeyd:** Məqalələrin sonunda mobil telefon nömrənizi qeyd edin.

**Əlaqə nömrəsi:** 544-08-61/101